**Çin Xalq Respublikasının (ÇXR) "Vanke School of Public Health-Tsinghua University" ali təhsil müəssisəsi 2021/22-ci tədris ili üçün ictimai səhiyyə sahəsində çalışan şəxslər üçün təqaüd proqramı elan edir**

ÇXR-nın Tsinqua Universiteti İctimai Səhiyyə üzrə Vanke Məktəbi "Çinin mükəmməl Gəncliyi Sxemi-Magistratura Proqramı üzrə Çin Hökumətinin Təqaüdü" (Youth of Excellence Scheme of China-Master of Chinese Government Scholarship) layihəsi çərçivəsində İctimai Səhiyyə üzrə Beynəlxalq Magistratura (Internetional Master of Public Health) proqramına qəbul elan edir:

**Ölkə:** ÇXR
**Təhsil səviyyəsi:** magistratura
**Tədris ili:** 2021/22
**Müddət:** 1 il
**Qarşılanan xərclər:** qeydiyyat, təhsil haqqı, laboratoriya xərcləri, təcrübə xərcləri, yataqxana, aylıq təqaüd, tibbi sığorta, yol xərci.
**Son tarix:** 31.03.2021
**Qeyd:** Proqrama yalnız dövlət müəssisələrində çalışan səhiyyə işçiləri və ya tibbi xidmət müəssisələrinin menecerləri müraciət edə bilər.

**Proqrama müraciət etmək üçün namizədlər aşağıdakı tələblərə cavab verməlidir:**

1. ÇXR-də ekvivalentliyi olan müvafiq sahədə bakalavriat təhsili;
2. İctimai səhiyyə sahəsində və ya ona yaxın sahələrdə 2 illik iş təcrübəsi;
3. 45 yaşdan yuxarı olmamaq;
4. Yüksəl səviyyədə ingilis dili bilikləri.

Təqaüd proqramı haqqında ətraflı məlumat, tələb olunan sənədlərin siyahısı və qeydiyyata dair keçid aşağıda verilir:

https://goglobal.tsinghua.edu.cn/en/program/p5mL9Q2x0yZQ
http://gradadmission.tsinghua.edu.cn/f/login

**Əlaqə vasitələri:** vsphacademic@tsinghua.edu.cn / +861062781788